# YAZI-YOZU



Paxıllığın ən murdar və təhlükəli növü alimlər arasındakıdar. Əsl elm isə bu qanundan kənardır, çünki onu işlətmək, sərf etmək, başqalarını öyrətmək, hamının malı etmək onun artmasına və kamala çatmasına səbəb olar, deməli, elmdə paxıllıq ehtiyacdan deyil, adamın zatından doğar. Filosoflar dünyanı uzun bir adamın üzərinə çəkilən qısa yorğana bənzətmişlər: başını örtəndə ayağına çatmaz, ayağını örtəndə başına...

Hər şeydə ortalığı təyin edə bilmək, yalnız bərabərlik nəticəsində olur ki, buna da «vicdan səsi» (ilahi namus) deyilir...

N.Tusi







Firuz MUSTAFA

# FOTOQRAF

(monopyes)

*Fotostudiya. Foto çəkilişi üçün zəruri avadanlıq və əşyalar gözə dəyir. Hər tərəfdə fotoşəkillər. Müxtəlif ölçülü şəkillər karton, ya faner lövhələrə yapışdırılıb, divarlara söykədilib, tavandan asılıb. Hətta, yerə atılmış şəkillər də var. Gur işıq tədricən, asta-asta şəkillərin üstündə gəzir...*

*Tamaşa boyu digər şəkillər görünüb "gözdən itsə" də, iri planda çəkilmiş üç fotoşəkil axıra qədər göz önündə qalır: ikisi kişi, birisə qadın şəkli... Əslində, tamaşanın əsas qəhrəmanları elə bu üç nəfərdir. Tamaşanın finalında həmin sıraya dödrüncü şəkil də əlavə olunur, fotoqrafın özünün böyüdülmüş fotosu. Yeri gəlmişkən, həmin fotoların əvvəlcə arxası, sonra isə avand*